# ADNSU-da "Fitnə" filmi tələbələrə təqdim olunub



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanan, dini ekstremizmin və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi dekabrın 5-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin professor-müəllim heyətinə və tələbələrə təqdim olunub.

ADNSU-nun rektoru, professor Mustafa Babanlı, DQİDK-nin sədri Mübariz Qurbanlı, sədr müavini Səyavuş Heydərovun iştirakı ilə nümayiş olunan film müəllim və tələbələr tərəfindən maraqla qarşılanıb.

Sənədli filmin nümayişindən sonra çıxış edən rektor M.Babanlı filmin çox təsirli olduğunu, dini radikalizmin qurbanı olan insanların timsalında bu problemin nə dərəcədə təhlükəli olduğunun aşkar göründüyünü bildirib. Dini və milli-mənəvi dəyərlərin təbliğindən danışan rektor xüsusilə gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün bu tipli maarifləndirici filmlərin çəkilməsi və çoxsaylı istiqamətləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətli olduğunu söyləyib. Azərbaycanda dövlət-din münasibətlərinin inkişafı üçün hər cür şəraitin yaradıldığını qeyd edən professor M.Babanlı ölkəmizin bütün dünyada tolerantlıq mərkəzi kimi tanındığını vurğulayıb.

DQİDK-nin sədri M.Qurbanlı çıxışında diqqəti dini radikalizm və ekstremizmlə mübarizənin əhəmiyyətinə yönəldib. O, dövlətin din siyasətinin əsas məqsədinin ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafından, eləcə də cəmiyyətdə sabitliyin möhkəmləndirilməsindən ibarət olduğunu diqqətə çatdırıb.

"Cəmiyyətin bütün təbəqələrinə dini radikalizmin və ekstremizmin fəsadlarını çatdırmaq üçün real faktların ictimaiyyətə nümayiş edilməsi mütləqdir. "Fitnə" filmi məhz bu zərurətdən ərsəyə gəlib. Filmdə dini radikalizmin toruna düşən insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilən, yanlış təsirlərə məruz qalan şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğunu gördük. Bir şeyi yadda saxlamaq lazımdır ki, dinə qarşı yox, dini təhrif edənlərə və din adı altında qanunsuz işlər görənlərə qarşı mübarizə aparmaq lazımdır", - deyə M.Qurbanlı bildirib.

Tədbirin sonunda DQİDK-nin sədri M.Qurbanlı ADNSU tələbələrinin suallarını cavablandırıb və onlara Azərbaycan dilində "Quran" hədiyyə edib.

**Mətbuat xidməti**